# SEVDA ƏLİBƏYLİ VƏ ONUN YENİ KİTABI



**Şəddat CƏFƏROV**

*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Sevda Əlibəyli mətbuatımızın, xüsusilə də mətbuat üçün fəal janr olan publisistikamızın təmənnasız fədakarlarından biridir. Onun *"Söz"* jurnalının yaşaması naminə mübarizələrini ayrıca hər nömrənin üzərində düşünərək təhlil etmək yəqin ki, gələcək mətbuat tədqiqatçılarının işi olacaq. İndi yazının bu yerində Sevda Əlibəylinin ədəbi-publisist fəaliyyəti haqqında heç ayrıca danışmaq fikrim də yoxdur. Çünki onun uzun illər üzərində işləyərək araya-ərsəyə gətirdiyi, Nizaməddin Şəmsizadənin *"Canlı abidə"* adlandırdığı, ancaq *"Səadət Tağıyev"* adı ilə çap olunan bu yeni kitabı da göstərir ki, o, publisistika sahəsində daha da kamilləşib, istedadının və mənəvi hazırlığının bəhrəsi olaraq həmyaşıdları arasında ustadlıq səviyyəsinə yüksəlib. Əlbəttə, mən kitabın quruluşu və bəzi məziyyətləri haqqında ayrıca söhbət açmaq fikrindəyəm. Ancaq Sevda Əlibəylinin kitab üzərində işinin əks-sədası kimi görünən *"ön söz"*ünün motivləri haqqında ayrıca mülahizələrimi bildirməyi vacib hesab etdim.

Sevda Əlibəyli haqqında yazacağı ədəbi qəhrəmanı yaxşı öyrənir. Onun kimliyini, ictimai mühitdəki yerini göstərən hadisə və məqamlara xüsusi diqqət göstərir. Hətta bəzən öz düşüncələrini essevari duyğularla ifadə edir.

Hər birimizə məlumdur ki, müəyyən zamanlarda və müəyyən ərazilərdə xüsusi keyfiyyətləri ilə fərqlənən insanlar olur. Belələrini görmək, tanımaq, onlar haqqında yazmaq əslində insanlığa xidmətdir. Yəni üstün mənəvi keyfiyyətləri ilə fərqlənən nadir adamları tapıb onları cəmiyyətə təqdim edəndə heç özümüzün də xəbərimiz olmadan cəmiyyəti üstün keyfiyyətlərlə silahlandırırıq. İnsanlara heç olmasa örnək ola biləcək bir adamı göstəririk. Münasibətimizlə həmin şəxsin cəmiyyətə faydalı olan tərəflərini qabarıq göstərməyə çalışırıq. Əslində elə cəmiyyətə xidmət etməyin ən üstün tərəfi də elə budur. Yəni yaxşını gör, onun yaxşı tərəflərini göstər. Heç olmasa, ümumi toplum içərisində örnək axtara biləcək insanlar belələrinin kimliyindən xəbər tutacaq, bəlkə lap özlərini ona da bənzətməyə çalışacaqlar.

Sevda Əlibəyli *"Səadət Tağıyev"* adlı sənədli əsərinin *"ön söz"*ündə ədəbi qəhrəmanının obrazına xüsusi bir hörmət və ehtiram duyğusu ilə yanaşır. Sanki elə *"ön söz"*dəki düşüncələri ilə seçdiyi ədəbi qəhrəmanın cəmiyyət üçün necə faydalı ola biləcəyini diqqətə çatdırır. Ümumiyyətlə, belə bir misal var ki, kölgəli ağac yayın istisində insanları özünə cəlb edir. Yəni hər kəs istəyir ki, kölgəli ağacın əhatəsində olsun. Onun kölgəsindən faydalansın. Yandırıcı istidən qorunsun, ruhuna bir sərinlik alsın.

Şübhəsiz, Səadət Tağıyev də yaşadığı, işlədiyi, fəal ictimai fəaliyyət göstərdiyi dövrdə diqqət mərkəzində olub. Onu tez-tez müəyyən sorğu-sualla jurnalistlər müsahibələrə çəkiblər. Azərbaycanın ziyalı adamları - Nizaməddin Şəmsizadə kimi alimləri onun görüşünə gediblər. Bir sözlə, Səadət Tağıyevin fəaliyyət göstərdiyi sovxoz Sevda Əlibəylinin dediyi kimi xüsusi bir ünvana çevrilib: *"Bəli, o sovxoz elə telefon vasitəsi ilə yazı obyektinə çevrildi"*. Zənnimcə, elə bu bircə cümlənin özü Səadət Tağıyevin necə arzulanan bir insan olduğu haqqında Sevda Əlibəylinin vasitəsi ilə kifayət qədər məlumat verir. Yəqin ki, insanlar isti münasibətin, mənəvi doğmalığın olduğu yerlərə daha çox can atırlar. Mən belə düşünürəm ki, elə Sevda Əlibəylinin özünü də Səadət Tağıyev haqqında dövrün tanınmış insanı kimi xarakterizə edəcək bir əsəri yazmağa məhz bu hiss vadar edib.

Sevda Əlibəyli kitaba yazdığı *"müəllifdən"* qeydlərində onu Səadət Tağıyevin cazibəsinə çəkən hisslərini, duyğularını da reallığı ilə yazıya gətirib: *"Sonralar o insan ürək qızdırdığım insanlardan oldu. Cəmi bircə dəfə - 1984-cü ilin iyul ayında oldum orada. Amma təəssüf ki, bu şəxs haqqında tanıyandan düz 24 il sonra yazmalıymışam. Özü də kitab"*. Bəli, göründüyü kimi Sevda Əlibəyli də Səadət Tağıyev haqqında belə geniş və əhatəli yazmaq qənaətinə asanlıqla gəlməyib. O həmin şəxsi tədqiq edə-edə, öyrənə-öyrənə onun daxili-mənəvi mühitinə bələd ola-ola son nəticədə daha əsaslı bir iş görmək qənaətinə gəlib.

Şübhəsiz, hər bir müəllif seçdiyi, şəxsiyyətinin dəyərli keyfiyyəti ilə uca tutduğu insan haqqında yazmaq istəyər. Əlbəttə, söhbət qələm adamlarından gedir. Ancaq birdən-birə kitab - bu çox çətindir. Elə Sevda Əlibəylinin öz qeydlərindən göründüyü kimi o, Səadət Tağıyev haqqında o qədər geniş məlumat əldə edib ki, ruhuna, varlığına yığdığı informasiyanı nəhayət ki, kitab şəklində reallaşdıra biləcəyini başa düşüb. Hətta o, kitabı necə yazacağını, haradan başlayacağını, bəlkə də necə qurtaracağını da qabaqcadan müəyyən edib. Çünki bədii yaradıcılıqdan fərqli olaraq ədəbi publisistikada müəlliflər üçün nəticə müşahidələrlə görünə bilir. Və Sevda Əlibəyli də elə özünün kitab üzərində işi haqqında reallığa uyğun məlumat verir: *"İlk öncə dostlarıyla görüşməyi qərarlaşdırdım. Axı, ömrünün çoxunu dostlarıyla paylaşıb. Deyirlər, xoşbəxtliyin əsas şərtlərindən biri ətrafdakılara sevinc, səadət bəxş etməkdir. Tanıyanlar bilir ki, bu insan var-dövlət hərisi olmayıb heç vaxt. Gözəl dostların, gözəl insanların aşiqi, xiridarıdır. Odur ki, hər dostu sanki banka qoyduğu əmanətdir, ən böyük sərvətidir. İstədiyi vaxt istifadə edə bilər. Bu məqamda AMEA-nın Mikrobiologiya İnstitutun direktoru, akademik Məmməd Salmanovla telefon söhbətimiz yadıma düşür. Akademik soruşdu ki, kitabı nə vaxta planlaşdırmısan? Dedim ki, dostlarıyla görüşüb qurtaran kimi başlayacağam. Dedi, onda sənə hələ çox illər lazım olacaq"*. Onu da deyim ki, Sevda Əlibəyli bu kitabı yazmaq üçün cəmiyyətdən də mənəvi dəstək alıb. Ədəbi qəhrəmanı haqqında kimin yanında nəyi danışırsa, xoş sözlər eşidib. Onun istəyini təqdir ediblər.

Hər bir yazı müəllifi oxucu marağının sorağındadır. Sevda Əlibəyli də hiss edəndə ki, onun yazacağı kitabı təqdir edənlər çoxdur, onun tərənnüm edəcəyi ədəbi qəhrəmanı sevənlərin sayı-hesabı yoxdur, onda özü də yolunda düz olduğunu bundan sonra da təqdir olunacağını başa düşüb.

Müəllif yaxşı bilib ki, əgər Səadət Tağıyev haqqında kitab yazırsa, onun yazdıqlarını oxumaq istəyən, onun tərənnüm etdiyi insanı yaxından tanımaq istəyənlərin sayı çox olacaq. Belə bir inamla silahlanmış müəllifi necə təqdir etməmək olar? Müəllif özü yazır: *"Onun haqqında kitab yazmaq təşəbbüsüm o qədər yüksək qiymətləndirilirdi, eşitdiklərimlə sanki onu yenidən kəşf edirdim və kitabı yazmağa tələsirdim. İnsanlara bu qədər yaxınlığın kökündə onun zəkası, ağıl və qabiliyyəti, zəhmətsevərliyi, ən başlıcası insanpərvərliyi və ziyarət dayanır. Tanrı sanki onu proqramlaşdırıb, xidmət üçün göndərib insanlara. Həyatda ən böyük zövqü də insanlara xidmətdə görür bu insan. İnsanda ən ali xüsusiyyət xeyirxahlıqdır. Qalanları ondan sonra gəlir"*. Sevda Əlibəyli göründüyü kimi tərənnüm etdiyi ədəbi qəhrəmanının xeyirxahlığını daha üstün keyfiyyət kimi tərənnüm edir. Onun əhatəsindəki insanların qənaətləri də ona əsas verir. O hiss edir ki, kim xeyirxahdırsa, insanlar da onu sevir.

Ümumiyyətlə, insanın yaxşı cəhətləri çox ola bilər. Məsələn, müharibə dövründə insanların qəhrəmanlığı, igidliyi daha çox əsas götürülür. Sülh dövründə isə insanların humanizmi, xeyirxahlığı, cəmiyyət üçün faydalı işlər görməyi daha üstün hesab olunur. Və Sevda Əlibəyli də adamların Səadət Tağıyev haqqında qənaətlərini məhz bu yöndən qiymətləndirir.

Nizami Gənvəci öz yaradıcılığında həmişə ağıllı insanı, müdrik insanı uca tutur. Hətta o, qılınc qəhrəmanı İskəndəri də nəhayət, son dövründə ağlına, idrakına görə uca tutur, yüksək qiymətləndirir. Demək, insanlar min illər boyu cəmiyyətə yol göstərən işıqlı adamların dəyərli məsləhətlərinə, ağıllı sözlərinə həmişə ehtiyac duyublar. Hiss ediblər ki, qaranlıqları insanın zəkası dağıda bilmirsə, heç nə dağıda bilməz. Bu mənada Sevda Əlibəylinin təqdir etdiyi ədəbi qəhrəman da məhz ağlı və zəkası ilə fərqlənir.

Sevda Əlibəyli sənədli əsərində elə bir insanı tərənnüm edir ki, onu müasiri olan insanlar hamısı təqdir edir. Onun əhatəsində olmaq, onun sözünü eşitmək hər kəsə xoş gəlir. Bu məqamları Sevda Əlibəyli kitaba yazdığı müəllif sözündə çox səmimiyyətlə etiraf edir: *"Kamil, müdrik, zəngin olan bu insanın şəxsiyyətinə olan məhəbbətdən hamı onun başına yığışır. Kişi xarakterinə görə seçilən, dediyi sözün məsuliyyətini daşıyan, zəkasının qüdrəti, əlinin zəhmətiylə irəli çəkilib yüksək dairələrdə ehtiramla qarşılanan bu şəxs hazırda heç bir dövlət qulluğunda fəaliyyət göstərmir. Elə adamlar var ki, onlara laqeydlik göstərməklə həmin adamdan çox, cəmiyyət, dövlət özü itirir, özü uduzur. O indi hər hansı sahəyə daha səriştəylə daha bacarıqlda başçılıq edə bilər. Ömrünün müdrik çağıdır axı. İşləmədiyi son illərdə də bu şəxsin xalq arasında, el içində hörməti, şərəfli adı necə vardısa, yenə də belədir. Bir məclisdə biləndə ki, Səadət Tağıyev gəlib, adının sorağına hamı yığışır"*. Mənim yadıma gəlir. Hələ uşaq idim. Bakıda doğulub-böyüsəm də arabir kəndə gedirdim. O vaxt bir hörmətli adamın kəndə yolu düşəndə hamı onun ətrafına yığışırdı. Amma elə də olurdu ki, el arasında deyildiyi kimi çoxdan camaat içərisində görünməyən bir mərdimozar da gəlirdi. Bu zaman heç kim onun görüşünə çıxmırdı, hamı onun gözünə görünməməyə çalışırdı.

Demək, insanlar xeyirxahı, yaxşını şər xislət adamlardan ayıra bilirlər. Və Sevda Əlibəyli də Səadət Tağıyevi ona görə uca tutur ki, insanlar onun adını eşidəndə onun görüşünə tələsirlər, onu görməyə çalışırlar. Onunla ünsiyyətdə olmaq istəyirlər. Bəs uca təbiətli insanları cəmiyyətə başqa cür necə təqdim etmək olar?! Zənnimcə, Sevda Əlibəylinin Səadət Tağıyev obrazını kitabını gətirən istək də məhz bu duyğularla bağlıdır.

Kimsəyə sirr deyil ki, Lənkəran sitrus meyvələri və çayı ilə məşhurdur. Bir vaxt Lənkəranın təbiətini düzgün qavramayanlar bu yerin sehirli gücünü kələm, pomidor, xiyar əkməyə sərf edirdilər. Amma zaman gəldi ki, Səadət Tağıyev kimi insanların timsalında Lənkəranın çay şöhrətini qaytarmaq istəyənlər də meydana çıxdı. Bu yol daha düzgün yol idi. Yəni yerin təbiətinə uyğun, torpağın istəyinə uyğun bitkini əkmək, becərmək, onun yerə-yurda şöhrət gətirəcək məhsulunu əldə etmək... düşünürəm ki, bu ən üstün yol idi. Və Sevda Əlibəyli də öz qəhrəmanını məhz bu yolda görür: *"Gələcək illərdə Azərbaycanın çayçılığından bəhs edən yazılarda, kitablarda Səadət Tağıyev adının zaman-zaman anılacağına şübhəm yoxdur. Çünki ömrünün necə on ilini çayçılığın inkişafına, istehsalına həsr edib. Şöhrətə can atmadı. Zəhmətkeşliyi və bacarığı sayəsində şöhrət özü gəlirdi onun ayağına"*. Təkcə söhbət gəlmir insanın ayağına, həm də insanın ayağına böyük zəhmətlərinin, müdrikliyinin, ağlının sayəsində, hətta özündənrazılar da gəlir. Hər kəs istəyir ki, şöhrətin sirrini ondan öyrənsin. Halal yolla çörək qazanmağın nə demək olduğunu onun öz dilindən eşitsin. Beləliklə, yaxşı insanlar cəmiyyətdə işıq kimi görünürlər. Onların insani keyfiyyətləri sözün həqiqi mənasında başqaları üçün də dərs olur, kitab olur. Tanınma vasitəsi olur.

Sevda Əlibəyli yaxşı bilir ki, bir insan öz dövrünü başa vurub gedir, başqası onun yolunu davam etdirir. Mən belə düşünürəm ki, xoşbəxt o kəsdir ki, yolunun işıqlı olduğunu başqaları da görə bilir, bu yolu davam etdirmək istəyirlər.

Yəqin ki, elə başqaları da mənimlə razılaşar. Hətta ən nadir adamları da belə kimsə əvəz edə bilir. Əlbəttə, nadir insanın elə keyfiyyətləri var ki, onu görmədən, bilmədən, tanımadan əvəz etmək olmaz. Hər halda Sevda Əlibəyli də əvəzolunmazlıq haqqında duyğularını belə bildirir: *"Deyirlər həyatda əvəzedilməz insan yoxdur. O da məlumdur ki, hər bir insan təkrarsızdır. Deyək ki, Səadət Tağıyev sovxozun direktoru olmasaydı, kənd inkişafdan qalardı - düz olmaz. Sovxoz çayçılıq üzrə ixtisaslaşıb və ya başqa nemətlər əkib yetişdirməklə inkişaf edib qələbələrə nail ola bilərdi. Lakin Səadət Tağıyev təkcə bunun qayğısına qalmırdı. Doğulduğu kəndində yaşadığı bütün ömrünü azərbaycançılıq amalları ilə yaşayıb, bu gün də yaşayır. Və bunu həmkəndlilərinə də təlqin edib"*. Şübhəsiz, məntiqlə biz bu fikirlərlə şərik oluruq. Çünki Səadət Tağıyev həqiqətən qazandığı təcrübəni öz ardıcıllarına da bəxş edib, öyrədib, bilgilərini onlardan əsirgəməyib. Zaman keçdikcə onun ardıcılları olan insanlar Səadət Tağıyevin ən üstün keyfiyyətlərini öz əməllərində reallığa çeviriblər.

Səadət Tağıyev həyatı boyu həmişə cəmiyyətin diqqət mərkəzində olub. Onun haqqında qəzetlərdə çoxlu yazılar gedib, müsahibələri dərc olunub. Radio, televiziya reportajları onu Azərbaycan mühitinə yaxından tanıdıb. Belə insanların ictimai həyatı cəmiyyət üçün çox faydalıdır.

*(Davamı 11-ci səhifədə)*

# SEVDA ƏLİBƏYLİ VƏ ONUN YENİ KİTABI

*(Əvvəli 10-cu səhifədə)*

Şübhəsiz, Səadət Tağıyevin zəngin arxivi də var. Onun haqqında yazılanlar əgər bir yerə toplansaydı, cildlərlə kitaba sığmazdı. Hər halda mən belə düşünürəm. Çünki həm Sovet dövründə, həm də indi təbiət etibarı ilə xeyirxah olan, zəhmətkeşliyi ilə seçilən insanlar haqqında yazan da çoxdur, danışan da çoxdur. Zənnimcə, Sevda Əlibəyli bir cümlə ilə bu məsələyə də aydınlıq gətirir: *"Səliqə ilə yığıb saxladığı qəzet-jurnal səhifələrdə, albomlardakı fotolarda ömür salnaməsi əks olunub. Bütün bunlara baxanda hiss edirsən ki, ömrü hədər getməyib".* Təkcə elə bu cümlənin özü də bəs edir ki, biz Səadət Tağıyevin necə ictimai bir həyat yaşadığı haqqında dolğun məlumat sahibi olaq. Bəli, o, yazıçıların, publisistlərin, şairlərin, elm adamlarının həmişə təqdir etdiyi, yüksək qiymətləndirdiyi canlı obrazlar sırasında bu gün də kifayət qədər görünən obrazlardandır.

Sevda Əlibəyli dövrünün tanınmış publisistlərindən olan Məmməd Əfşanın qeydlərinə də öz sözünə qüvvət kimi xüsusi yer verir: *"O, dosta, dostluğa həddən artıq sədaqətlidir. Həmişə evinin ən əziz nemətini dost üçün saxlayır. Sözübütöv kişidir. Kiməsə söz verdi, nəyin hesabına olsa da, onu yerinə yetirməyə çalışır. Haqqı - halallığı, doğruluğu, mənəvi təmizliyi, ləyaqət, mənlik və şərəfini uca tutan adamdır. Riyakarlıqdan, saxtakarlıqdan, yalançılıqdan, yaltaqlıqdan zəndeyi-zəhləsi gedir. Mərddir, qürurludur, ləyaqətlidir. Heç kəsin önündə əyilmək, sınmaq istəmir. Ləyaqətini, şəxsiyyətini daim özündən uca tutur. Hər kəsin eybini üzə düz deməkdən çəkinmir. Elə buna görə də rayon rəhbərləri həmişə ondan ehtiyatlanırlar. İdeyasına, sözünə, fikrinə sadiq adamdır. Onu inamından, əqidəsindən döndərmək çətindir. Xoşuna gəlməyən kəslərdən, ürəyinə yatmayan işlərdən, mənəviyyatına, əxlaqına yad olan hərəkətlərdən daim uzaqda durur. Səadətdə nəhayətsiz torpaq sevgisi, yurd istəyi, vətən məhəbbəti var. O, yurdun hər qarışını ürəkdən sevir. Onun üçün adamların ögey-doğması, torpağın, yurdun mənim-sənini yoxdur. Pisi, yaxşısı var. O, Qubanı, Qazaxı, Gəncəni, Naxçıvanı, Şəkini, Şamaxını da doğma Lənkəran qədər sevir və bu sevgini övladlarına da aşılayır. Bir sözlə, Səadət Tağıyev insanlığa meyar, ölçü-meyar olan nə varsa, ona sahib çıxan kişidir. Elə bu sahiblik də onu daim ucaldıb, şöhrətləndirib".* Məmməd Əfşan adı bu günkü yazarlara tanış olan imzadır. Onu 70-80-ci illərdə də ilhamlı publisistikasına görə yaxşı tanıyır və yüksək qiymətləndirirdilər. Hətta eləlləri də var idi ki, onun haqqında deyirdilər ki, Məmməd Əfşanın da bir adı var idi. Əlbəttə, bu "bir adı var" sözü onun şöhrətli publisistikasına işıq salan cəhətdir. Daha doğrusu, cəmiyyətin verdiyi dəyərdir.

Sevda Əlibəyli də şöhrətli publisistdən gətirdiyi həmin parçaya münasibət baxımından sözünə davam edir: *"Bu sətirləri yazıçı-publisist Məmməd Əfşanın "Mən görən kişilər" kitabından "Ulu nəslin layiqli davamçısı" oçerkindən götürmüşəm.Yazıda diqqətimi çəkən bu fikirlər deyərdim ki, Səadət Tağıyev ömrünün tezisləridir. Yazacağım kitabda bu tezislərə aydınlıq gətirə bilsəm, deməli, nəyəsə nail olmuşam".* Bəli, bu qeydlərdə Sevda Əlibəylinin publisist sələfinə münasibəti kifayət qədər aydındır. O, səmimiyyətlə Səadət Tağıyev haqqında yazmış müəllifin duyğularını təqdir edir. Onun sözünü uca tutur.

Əlbəttə, zaman keçir. Bu gün daha çox tanınan, bəlkə sabah bir qədər az tanınır. Amma o insanların həyatı heç vaxt unudulmur ki, onların xeyirxahlıqla dolu yaşam yolunun izləri insanın qəlbindən keçir.

Bütün hallarda cəmiyyət adamların acıdır. Və biz də ona görə Sevda Əlibəylinin kitabını təqdir edirik ki, o, ömrünü xeyirxahlıq naminə sərf edib. Yaxşı işləri ilə ad-san qazanıb. Və Sevda Əlibəyli müəllif sözünün sonunu elə bu duyğularla bitirir: *"Dahilər deyir ki, yaxşı kitab oxumaq keçmiş zamanların ağıllı adamları ilə söhbət etməkdir. Yaxşı kitabı ilk dəfə oxuyanda bizə elə gəlir ki, yeni dost qazanmışıq. Həmin kitabı təkrar oxumaq isə köhnə dostu yenidən görmək deməkdir. Əziz oxucu! İnanıram ki, qazandığın yeni dostunu köhnə dost kimi dəfə-dəfə görməyə can atacaqsan".* Əlbəttə, bu sözlərin sonunda oxucuya müraciəti də təbii qarşılamaq olar. Bu, Sevda Əlibəylinin inamıdır. O hiss edir ki, insanlar öz varlıqlarına yaxın olan, özlərinə yaxın hesab etdikləri insanları heç vaxt unutmurlar.

Şübhəsiz, bu dünyada heç kəs cismən əbədi deyil. Amma əbədi olan insanlardan qalan yaxşı əməllərdir. O əməllər ki, hətta öz zamanlarından sonra da insanlara fayda gətirir, xeyir verir.

Sevda Əlibəyli yaratdığı Canlı abidə - *"Səadət Tağıyev"* əsəri ilə təkcə bir insana abidə qoymayıb, həm də yaxşı əməllərə abidə qoyub.

Bir anlığa düşünək, əgər dünyada yaxşı əməl sahibi bir insan olmasaydı, onda cəmiyyət hansı işıqla gələcəyə doğru gedə bilərdi? Demək, insanlar üçün gələcəyə gedən yolda işıq sələflərinin yaxşı əməlləridir.

* * *

Sevda Əlibəylinin yazı tərzi, onun obraza yanaşması, doğmalıq müstəvisində özünü göstərir. Hətta o, əsərin başlanğıcında belə bir epiqraf da işlədir: *"Qadın zəhməti ilə kişi olmuşuq".* Və imza tanınmış şairimiz Zeynal Vəfaya məxsusdur. Xüsusilə bu sözün dəyəri, hikməti İkinci Cahan savaşından sonrakı mərhələni xarakterizə edir. Əlbəttə, bu hikmət özünü Birinci Qarabağ savaşından sonrakı mərhələdə də təsdiq edir. Lap elə gələcək nəsillər İkinci Qarabağ savaşından sonrakı mərhələ haqqında da təxminə buna bənzər qənaətlərlə dövrə, zamana münasibət bildirəcəklər.

Sevda Əlibəyli kitabında müdrik bir ana obrazının şəklini də verir. Və bu şəkil bizə təlqin edir ki, müharibədən sonrakı zamanın əsil qəhrəmanları elə analar olub. Hər halda Sevda Əlibəyli öz əsərini belə təsiredici epizodlarla başlayır: *"Bu ifadə min dəfə deyilsə də, milyon kərə təkrarlansa da, həqiqətdir, fakt faktlığındadır: "Müharibə dövrünün uşaqları zamanından tez böyüyüb kişiləşirdilər". Səadət Tağıyev 1936-cı il, noyabrın 27-də doğulsa da, sənədlərində 1935-ci ildə doğulduğu göstərilmişdir. Yanlışlığın özündə də bir həqiqət var. Sənəd yazan dəftərxana işçiləri bilirdilər ki, bu uşaqlar yaşlarından böyükdürlər. ...Əmisi Məmi 1939-cu ildə orduya çağırılır, müharibə başlayandan sonra isə atası yola düşür. Xeyrulla müəllim müharibənin nə olduğunu çox gözəl bilir. Səadət isə bu ayrılığın nə olduğunu anlamır hələ. Xeyrulla müəllim odun-alovun içinə getməsinə baxmayaraq ata-anası görməsin deyə, küçə qapısından çıxanda uşağı xəlvəti küncə çəkib bağrına basır, üz-gözündən öpür, "inşallah tez qayıdıb görüşərik" - deyir. Atasının həsrətli baxışları həkk olur yaddaşına".* Kifayət qədər geniş şəkildə təqdim etdiyimiz bu parçada təkcə bir insanın taleyi öz əksini tapmır, burada atanın da taleyi var, ananın da taleyi var. Atasız böyüyən uşağın da taleyi var. Və əlbəttə, bir atanın, bir uşağın, bir ananın yox, minlərlə bələlərinin də taleyi var.

Ümumiyyətlə, obrazın mənəvi mühitinə daxil olmaq, onun təbiət etibarı ilə necə insan olmasını vermək yazıçının istedadından və müşahidə imkanlarından çox asılıdır. Elə yazıçılar var ki, öz ədəbi qəhrəmanını müxtəlif bədii vasitələrlə oxucusuna təqdim edə bilir. Oxucu yazıçının apardığı müqayisələrlə qəhrəmanının qəddar, yoxsa xeyirxah, sərt, yoxsa kövrək, bir sözlə, yaxşı, yoxsa pis olmasını dərk edir. S.Əlibəyli də öz ədəbi qəhrəmanını sanki təbiətlə müqayisədə təqdim edir və zənnimcə, onu oxucusuna düzgün, əlbəttə, təbiət baxımından düzgün təqdim edə bilir: *"Çoxları baharı sevir, mən isə payızın əsiriyəm. Rənglərin simfoniyası qəribə ovqat yaradır könlümdə. Toydan qayıdanda oktyabrın son günləri idi. Masallıdan Biləsuvaradək yol boyu uzanan meşəlik yarpaq ömrünün xəzan çağını yaşayırdı. Saralan yarpaqlar günəşin zərif şüalarından qızılı rəngə çalırdı. Torpaqdan isə yamyaşıl, təzətər otlar göyərirdi. Haradansa, ömrünün payızını yaşayan Səadət Tağıyevin uşaq kimi kövrəlməsi gəldi gözlərim önünə. Bu kövrəkliklə ömrünün xəzanında yenidən göyərən uşaqdır sanki".* S.Əlibəyli bu qeydləri ilə yoluna işıq tutduğu insanın sanki kimliyini göstərir. Onun gələcəkdə necə adam ola biləcəyini və hal-hazırda hansı imicdə göründüyünü təqdim edir.

S.Əlibəyli ədəbi qəhrəmanının keçdiyi həyat yolunu onun iztirabları ilə birgə təbii yaşantılarını hətta öz yaşantıları kimi göstərir: *"Ümumiyyətlə, o illərdə evlərin əksəriyyətində kişi olmadığından kişilik oğlan uşaqlarının boynuna düşürdü. Ailələrin ümumi dərdi, ümumi qayğısı bir idi. İlk qazancı əmək gününə hesablanan taxıl olub. Yəqin elə ona görədir ki, bu günədək əli çörəklidir. Kəndlərində taxıl əkilirdi. Taxılı ac qarğalar dənləyib məhv edərdilər. Odur ki, Səadətlə taytuş olan oğlan uşaqları sahələrdə növbə çəkib bu işə diqqət yetirərdilər. İlin sonunda hesablanan əmək gününə taxıl verərdilər. Bu iş - qarğaqovanlıq (qarğavanlıq deyərmişlər - S.Ə.) əsasən oktyabr-noyabr aylarında olardı. Müharibə dövrünün o yaşda oğlanlarının oyunları, əyləncələri belə idi. Məktəb partalarının dəftər-kitablarının pulunu da özü qazanır. Həyətlərinin meyvəsini yığır, meşədən odun yığıb şələləyir, kənd uşaqları ilə Port-İliçə (liman şəhəri), Boradigaha, kiçik bazara aparıb satır, pul qazanır. Zahirən göyçək, suyuşirin, hələ kişiləşməmiş Səadətin əllərinin içi vedrələrin ağırlığından qıpqırmızı qızarar, kürəklərində odun şələlərinin izi qalardı. Sevimli Xırdaxanım nənəsi uşağın yorğun, qabarlı əllərindən öpər, gözləri dolar, müharibəni lənətləyərdi. Günlərin birində bazardan evə gəlib, pulları nənəsinə vermək istəyəndə cibində bir qəpik də tapmır. Zülmlə qazandığı pulun son qəpiyinə qədər oğurlandığını görür (bu söhbəti dinləyəndə "Şərikli çörək" filmindəki çörək talonunu itirən oğlan düşür yadıma). Həyatda daddığı o ilk haqsızlığı indi də hərdən-hərdən acı-acı xatırlayır. Sonralar isə, yəni bu günə kimi belə haqsızlıqlarla çox üzləşməli olacaqmış".* Daha maraqlı məqamlar da var. Hətta oxucunu sarsıdan, hətta bir uşağın çəkə bilməyəcəyi ağırlığın təsvirini göstərən məqamlar da var. Bütün bunlar Sevda Əlibəylinin yazıçı ustalığı ilə üzə çıxan görüntülərdir.

İnsanın lap uşaq yaşında belə hər hansı bir haqsızlığa düçar olması ömrü boyu onun yaddaşından silinmir, amma uşaq var ki, həmin haqsızlığı yaddaşında qərəzə çevirir, gələcəkdə cəmiyyətə qarşı qərəzli mövqe tutur. Səadət Tağıyev isə belə yolu seçmir.

Səadət Tağıyevin uşaqlıq çağında rastlaşdığı bir haqsızlıq motivi S.Əlibəylinin yazısında lap ürəkgöynədən tərzdə özünü göstərir: *"Uşaqlıqla bağlı yaddaşında başqa bir nüans da var ki, bu gün də unuda bilmir. Müharibənin təzə bitdiyi il imiş. Dərslər başlayıbmış. Taxıl təzə səpildiyindən qarğalar dənə daraşıbmışlar. Yenə də məktəb yaşlı uşaqlar bu işə cəlb olunublar. Səadət isə həmin günlərdə dərsə gedir. Yolda briqadir Əbdül Məmmədovla rastlaşır. Hara getdiyini soruşur, Səadət əlindəki dəftər-kitabı göstərib məktəbə getdiyini bildirir. Briqadir onun üzünə bir şillə çəkir. Məktəbə yox, sahəyə getməsini tapşırır (Bu, Səadətin ömründə ilk və son şillə olur). Lakin Səadət sahəyə yox, məktəbə gedir. Gözlənilməz şillədən uşaq qəlbi sınsa da, özünü sındırmır. Bu barədə nə evdə, nə də məktəbdə bir söz demir. Amma deyəsən, bu vaqiəni görən olubmuş. Sinif rəhbərləri Hacı müəllim ertəsi günü Səadəti çağırıb soruşur: - Əbdül səni döyübmü? Səadət boynuna almır. Aldığı nahaq şillə nə qədər acı olsa da, bu faktı danır, briqadirin üzünə durmur. Əslində bu işi aktlaşdırıb briqadiri məhkəməyə vermək istəyirdilər. Sonralar Səadət məktəblərində kitabxana müdiri işləyəndə briqadir Əbdül də müəllimlik edirmiş. Səadətin uşaq yaşlarında göstərdiyi mərdliyi, kişiliyi tez-tez xatırlarmış və ömrünün sonuna kimi bu faktı unutmur. Mərdlik, kişilik Səadət Tağıyevin xarakterinin bu gün də dəyişməz cizgiləridir. Bağışlamaqdan aldığı ləzzəti, qisası, intiqama heç zaman dəyişməyib. Onun üçün ən böyük qisas ən böyük qisas unutmaqdır".* Zənnimizcə, Səadət Tağıyevi böyüdən keyfiyyət məhz bu olub. Və S.Əlibəylini bir müəllif kimi təqdir etməyimizin əsas səbəbi onun humanizmi, insanlığa sevgini uca tutmasıdır.

Kitabda Səadət Tağıyevi tanıyan insanların xatirələri, düşüncələri, xüsusi münasibətlərini göstərən yazılar da yer alıb. Əlbəttə, bu qeydlərdə həmin xatirələrə yer ayırmaq yazının həcmini daha da artırardı.

Ona görə də fikrimi belə bitirirəm: Həyatını xeyirxahlıqla yaşayan insanları cəmiyyət unutmur. Və elə cəmiyyət unutmadığına görə yazıçılar da unutmur.

***09.08.2022***